*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2023, №3* *ISSN: 2664-5432*
*Səhifə: 97-101*
*http://doi.org/10.59849/2664-5432.2023.3.97*

**ZEMFİRA ƏLİYEVA***

# TÜRK DİLLƏRİNDƏ KEYFİYYƏT KATEQORİYASININ TƏKAMÜLÜ

**XÜLASƏ**

Türk dillərində leksik-qrammatik vahidlər müxtəlif prinsiplər əsasında qruplaşır. Leksik vahidlər türk dillərində quruluşuna görə (sadə, düzəltmə, mürəkkəb); forma və məna xüsusiyyətlərinə görə (omonimlər, sinonimlər, çoxmənalı sözlər, antonimlər); tərkibindəki hecaların sayına görə (birhecalı, ikihecalı, çoxhecalı); mənşəyinə görə (milli və alınma sözlər) kimi səciyyələnir.

Türk dilləri sistemində qrammatik kateqoriyalar da sözlərin bölgülərindən biridir. Sözlərin dil strukturundakı mövqeyini ifadə edən kateqoriyalar dilçilik elminin çox qədim problemlərindən biridir.

Kateqoriyalar ümumdil hadisəsidir. Kateqoriyaların bölgüsünün əsasında semioloji prinsiplər durur.

**Açar sözlər:** *qrammatik kateqoriya problemləri, kateqorial məna sistemi, ümumi kateqorial məna, müxtəlifsistemli dillər, leksik-qrammatik kateqoriya, ümumqrammatik kateqorial semantika, qrammatik əlamətlər, leksik-qrammatik məna, əşyəvilik funksiyası, sintaktik-kontekstual funksiyalar.*

Türk dillərində sözlər müxtəlif cəhətdən və fərqli prinsiplər əsasında qruplaşdırılır. Leksik vahidlərin tədqiqi onların təsnifi problemlərini meydana gətirir. Türk dillərində leksik vahidlər quruluşuna görə (sadə, düzəltmə, mürəkkəb), forma və məna xüsusiyyətlərinə görə (omonimlər, sinonimlər, çoxmənalı sözlər, antonimlər), tərkibindəki hecaların sayına görə (birhecalı, ikihecalı, çoxhecalı sözlər); mənşəyinə görə (milli və alınma sözlər) kimi səciyyələnir.

Türk dilləri sistemində qrammatik kateqoriyalar da sözlərin bölgülərindən biridir. “Bu bölgü öz əhatəsinə və əhəmiyyətinə görə sözlərin başqa bölgülərindən fərqlənir. Digər bölgülərin hamısında bir lüğət vahidi kimi sözün özü, öz kütləsi tədqiqat obyekti olur, onun daxil və xarici strukturu, münasibətləri, sözlərin əmələ gəlmə və inkişaf yolları istiqamətləri öyrənilir. Bu inkişaf prosesi nitq hissələrinə və onların bölgüsünə də aiddir. Lakin nitq hissələri təlimində bu əsas məqsəd deyildir. Bu təlim sözlərin nitqdəki fəaliyyəti nəticəsində meydana gələn, ümumiləşən, qanuniləşən və dil faktına çevrilən dəyişmə qaydalarını öyrənir” [Seyidov: 2000, s.59-64].

Sözlərin dil strukturundakı mövqeyini ifadə edən kateqoriyalar dilçilik elminin çox qədim problemlərindən biridir. O.P.Sunik “Общая теория частей речи” əsərində qeyd edir ki, “nitq hissələri haqqında təlimin çoxəsrlik tarixi o qədər də məzmunlu deyildir” [Суник: 1966, s.17-20].

A.S.Çikobavanın fikrincə, “yunan dilinin filoloji qrammatikasının yaranmasından iki min ildən çox keçməsinə baxmayaraq, nitq hisslərinin bölgüsündə əldə edilən uğur çox azdır” [Вопросы теории частей речи на материале языков различных типов: 1965, s.50-52].

XX əsrin 40-cı illərində İ.İ.Meşşaninovun “Члены предложения и части речи», akademik V.V.Vinoqradovun “Русский язык” əsərlərində nitq hissələri problemi dərindən araş-

* AMEA Nəsimi adına Dilçilik İnstitutu Nəzəri dilçilik şöbəsi, baş elmi işçisi, filologiya elmləri doktoru

dırılmışdır [Вопросы теории частей речи на материале языков различных типов: 1965, s.53-54].

Adları çəkilən əsərlərdə qaldırılan məsələlər nitq hissələri və ümumiyyətlə keyfiyyət kateqoriyası probleminin son dərəcə çətin və eyni zamanda aktual olduğunu bir daha sübut etdi. Kateqoriya məsələsi dilçiliyin ən qədim problemlərindən biridir, lakin indiyə qədər də həll olunmuş hesab edilə bilər. V.O.Admoni yazır: "Kateqoriyaların təsnifatının, həm də vahid bir meyardan çıxış edərək, dilin bütün məlum materiallarını əhatə edən və bu materialların mahiyyətinə uyğun gələn təsnifat prinsiplərinin olmaması çoxdan qrammatikalarda əks olunmuşdur" [Вопросы теории частей речи на материале языков различных типов: 1965, s.98-100].

Q.Paul "Принципы истории языка" əsərində qeyd edir ki, Hind-Avropa dillərində kateqoriyaların təsnifatında bəzən leksik-semantik, bəzən morfoloji, bəzən də sintaktik meyar əsas götürülür. Kateqoriyaların təsnifatında əsas meyar hansıdır? Bu sözün mənasıdırmı? Morfoloji meyarı, qrammatik mənanı kateqoriyaların bölgüsündə əsas götürmək olarmı? Bəlkə sözlərin cümlə daxilində işlənməsi, yəni sintaktik funksiyalar kateqoriyaların təsnifi üçün əsas ola bilər. Araşdırmalar sübut edir ki, nə leksik məna, nə morfoloji əlamət, nə də sintaktik funksiyalar kateqoriyaların bölgüsü üçün əsas ola bilməz.

Fikrimizcə, kateqoriyalar ümumdil hadisəsidir. Bu baxımdan kateqoriyaların təsnifatında nə leksik məna, nə formal qrammatik əlamətlər, nə də sintaktik funksiyalar əsas götürülə bilər. Kateqoriyaların təsnifatının əsasında semasioloji meyarlar: əşyavilik anlayışı (isim), atributivlik və ya əlamət (sifət), dinamik xüsusiyyət (feil); hərəkətə aid əlamət (zərf), V.İ.Deqtyarov "Основы общей грамматики" əsərində bu barədə yazır: "Verbal təfəkkürün bəşəri xarakterinə əsaslanan kateqoriyaların mahiyyəti ümumdil xüsusiyyəti olmaqla müxtəlif dillər üçün eynidir" [Вопросы теории частей речи на материале языков различных типов: 1965, s.173-175].

Fikrimizcə, müxtəlif quruluşlu dillərin kateqorial məna sistemi əsasən eyni olduğuna görə, morfoloji əlamətlərində dərin fərqlərin olmasına baxmayaraq, onlarda kateqoriyaların tərkibi bir-birinə uyğundur Ona görə də leksik vahidlərin ümumi kateqorial mənası bütün dillərdə oxşardır. Akademik A.A.Şaxmatov "Синтаксис русского языка" əsərində kateqoriyaların semasioloji prinsipli bölgüsündən bəhs edərək yazır: "Əşya, əlamət və hərəkət anlayışları kateqoriyaların əsas mənasının özəyini təşkil edir" [Вопросы теории частей речи на материале языков различных типов: 1965, s.439-440].

V.V.Vinoqradov qeyd edirdi ki, "kateqoriyalar kimi mücərrəd anlayışları qrammatikləşmiş mənalar hesab etmək olar". Beləliklə, qohum olmayan dillərin müqayisəli qrammatikaları müxtəlifsistemli dillərin nitq hissələrinin eyniliyini sübut edir. Kateqoriyaların təsnifatında əsas meyar semasioloji prinsipdir. Semasioloji prinsip əsasında təsnif olunan mücərrəd qrammatik mənalar hesab olunmalıdır.

Bəzi alimlər M.V.Lomonosov A.A.Potebnya, D.A.Ovsyaniko-Kulikovski A.M.Peşkovski, L.V.Şerba və b. kateqoriyaların təsnifatının əsas meyarı saydıqları semasioloji prinsiri əşya, əlamət, keyfiyyət və hərəkət kimi ümumkateqorial mənaları məntiqi anlayışlarla əlaqələndirməyə çalışırdılar. Lakin bu ümumi linqvistik anlayışları məntiqin, fəlsəfənin, psixologiyanın qanunları ilə eyniləşdirmək səhv olardı.

Qeyd etmək lazımdır ki, kateqoriyaların təsnifatında türkoloqlar arasında da fikir ayrılığı vardır. E.R.Tenişev yazır: "Kateqoriyalar digər dil ailələrində olduğu kimi türk dillərində

də ümumqrammatik (kateqorial) semantika ilə birləşən və xüsusi qrammatik əlamətlərlə (sözlərin yaranması və dəyişməsi) və sintaktik (sözlərin əlaqələnməsi) cəhətdən səciyyələnən söz qruplarıdır”. Kateqoriyaların mahiyyəti kimi qeyd edilən əşyəvilik, əşyanın mahiyyəti, əşyanın əlamət və keyfiyyəti, əşyanın hərəkəti, leksik-semantik mənalardır.

Fikrimizcə, müxtəlif mənşəli və müxtəlif quruluşlu dillərin tipoloji tutuşdurulması sifətlərin leksik-qrammatik kateqoriya kimi genezisi haqqında, onların leksik-semantik əsasının qrammatik formalaşma prosesi haqqında məsələ qoymağa imkan verir.

Türk dillərində sifətlərin semantik kateqoriyaları onların leksik mənasını ümumiləşdirir, lakin ona bərabər ola bilmir. Bununla belə, əşyəvilik, əlamət, keyfiyyət, kəmiyyət və hərəkət anlayışlarını semantik əlamət hesab etmək məqsədəuyğundur. Çünki, sifətlərin bütün əlaqə sistemi nəzarət altındadır.

Professor Y.Seyidov müxtəlif meyarlara əsaslanaraq sifətlərin qrammatik kateqoriyalar kontekstində yerini müəyyənləşdirməyə çalışan alimləri iki qrupa bölür:

1. Öz başlanğıcını İ.A.Boduen de Kurtenenin və L.V.Şerbakın Sankt-Peterburq dilçilik məktəbindən olan dilçilər sifətləri leksik-qrammatik kateqoriya adlandırırlar.

2. F.F.Fortunatovun Moskva dilçilik məktəbinə əsasıanaraq isə sifətləri sırf qrammatik kateqoriya kimi təqdim edirlər [Seyidov: 2000, s.59-64].

Sifətlər qrammatik kateqoriya olmaqla leksik-qrammatik məna, morfoloji əlamət və sintaktik mövqeyinə görə fərqlənən söz qruplarıdır. Sifətlərin səciyyələndirilməsində əsas meyar sintaktik prinsipdir. Sifətləri yalnız sintaktik funksiyalarına əsaslanaraq mexaniki şəkildə bu və ya digər nitq hissəsinə aid etmək düzgün olmazdı. Həm cümlə üzvləri, həm də nitq hissələri müəyyən qrammatik kateqoriyalara məxsus olub-olmamaları ilə səciyyələnir.

Sintaktik funksiyalar və kontekst olmadan bəzi leksemlərin məhz hansı qrammatik kateqoriyaya aid olduğunu söyləmək çətindir. Hind-Avropa dillərində və bəzi yafəsi dillərdə sifətlər xüsusi morfoloji göstəriciləri ilə fərqlənir. Sifətlər isim kimi cins kateqoriyasına malik olmur, yalnız cümlədə qrammatik uzlaşma zamanı (yəni təyin kimi işləndikdə) təyin etdiyi sözün cins kateqoriyasının formal əlamətlərini qəbul edir.

Müxtəlifsistemli dillərin materialları üzərində aparılmış tədqiqatlar sübut edir ki, ingilis dili istisna olmaqla bir çox Hind-Avropa dillərində (slavyan və roman dillərində) sifətlər isimlərdən həm formal morfoloji əlamətlər, həm də semantik-sintaktik funksiyalarına görə fərqlənir. İngilis dilində isə sifət və isimlərin bir qrammatik kateqoriyada birləşmə meylləri hiss olunur. Bu dildə sifət və isim kateqoriyaları yalnız sintaktik konseptual funksiyaları ilə fərqlənir. Türk dillərində yalnız cümlədəki mövqeyi, yəni təyin funksiyasında işlənməsi hələ hər hansı bir leksemin sifət kateqoriyasına aid olduğunu sübut etmir.

Fikrimizcə, yeni söz yaradıcılığında, konversiya nəticəsində sifətləri zərflərdən və isimlərdən fərqləndirən morfoloji, sintaktik və semantik əlamətlər və onların arasındakı əlaqələr tamamilə itmir. Sifət paradiqmlərinin səciyyəvi xüsusiyyətləri, leksik mənaların və sintaktik funksiyaların diferensiasiyası konversiyanı sözyaradıcı üsullardan biri hesab etməyə imkan verir. Bu barədə akademik İ.İ.Meşşaninovun fikirləri maraqlıdır: “Bir nitq hissəsinə məxsus qrammatik kateqoriyaları mühafizə edən söz özünəməxsus olmayan mövqedə çıxış edəndə də həmin kateqoriyanı qoruyub saxlayır” [Вопросы теории частей речи на материале языков различных типов: 1965, s.247-248].

Beləliklə, deyilənlərdən belə nəticə çıxarmaq olar ki, türk dillərində sifətlər digər dillərdə olduğu kimi əşyanın statik əlamətini bildirir və adyektiv əlamətdən əlavə hərəkətin əla-

mətini də bildirir, yəni zərf funksiyasında işlənir. Hərəkətin əlamətini bildirən sözlər öz semantik funksiyalarına görə digər atributiv mənalı leksemlərdən fərqlənirlər. Sifətlər leksik mənaları əsasında qruplara bölünürlər. Lakin təəssüflə qeyd etmək istərdik ki, sifətlərin bütün türk dillərini əhatə edən semantik təsnifat prinsipləri hələ işlənib hazırlanmamışdır.

Sifətlərin semantikasını araşdırarkən belə qənaətə gəlmək olar ki, heç də bütün sifətlər hərəkətin əlamətini ifadə edə bilmir. Hərəkətin əlamətini ifadə edə bilməyən leksik-semantik qruplar bunlardır:

1) Rəng bildirənlər: ağ, qara, göy, sarı.

2) Fiziki əlamət bildirənlər: sağır (kor); yaş (gənc, cavan); koca (qoca); şişman (kök); kiçik (kiçik) və s.

3) Fizioloji və fiziki vəziyyət bildirənlər: ac; toq (tox); sağ (sağlıam); diriğ (diri); ölüğ (ölü); eski (köhnə).

4) İctimai vəziyyət bildirənlər: evli, subay, dul, bay (varlı); yoqsul və s.

Yuxarıda sadalan bu sifətlər öz mənasına görə substantivə yaxınlaşır. Hələ V-VIII əsrlərdə isimlərin sifətlərdən diferensiallaşma prosesi getmişdir. Bəzi morfoloji formalar sifətlər və isimlər üçün ümumi olmuş, sonrakı əsrlərdə diferensiallaşmışlar.

-ki, -kı, -ku, -qi, -qu formalı sifətlərdə isə əvvəldən atributivlik sememi dominantlıq təşkil etmişdir. Orxon-Yenisey və uyğur abidələrinin materialları sübut edir ki, zərf bir nitq hissəsi kimi ən qədim dövrlərdən mövcuddur. Zərflərin sifətlərdən morfoloji ayrılma prosesi daha qədim dövrlərə, Orxon-Yenisey abidələrinin yaranmasından əvvəlki vaxta təsadüf edir. Bu proses türk dillərində əsrlər boyu getmişdir və bu gün də zərflərin diferensiallaşma prosesini başa çatmış hesab etmək olmaz.

Hind-Avropa və Türk-Altay dillərinin tarixi müqayisəli metod vasitəsilə tədqiqi sübut edir ki, zərflər metodoloji baxımdan sabit nitq hissəsidir, isim və sifətlərdən sonra yaranmışdır. Sifətlər və isimlər isə prototürk dövründə mövcud olmuş əşyəvi-əlamət semantikalı diferensialaşmamış addan törənmişdir. V.İ.Radlov türk dillərində isim, sifət və zərf köklərinin eyniliyini bununla izah edir [Радлов, c.38-44].

A.M.Şerbak isimlərin semantik-funksional transformasiyası vasitəsilə sifətlərin yarandığını sübut etmək istərkən, heç də həmişə dəqiq misallar göstərmir. “Qara” sözünün maddilik sememi Azərbaycan, türk və s. dillərdə bu gün də qalmaqdadır. Beləliklə, türk dillərində isimlər, sifətlər, daha sonrakı dövrlərdə isə zərflər və hal-vəziyyət kateqoriyası prototürk dövründə mövcud olmuş, mücərrəd əşyəvilik və əlamət sememlərini ifadə edən ən qədim adlardır. Türk dillərində keyfiyyət kateqoriyasını ifadə edən sözlərin mənşəyi məhz dediyimiz mücərrəd əşyəvilik və əlamət mənalı sözlərlə bağlıdır..

## ƏDƏBİYYAT

1. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 2000.
2. О.П.Суник.Общая теория частей речи. М.-Л., 1966.
3. Вопросы теории частей речи на материале языков различных типов. М.-Л., 1965.
4. Дмитриев Н.К. трой тюркских языков. М., 1962.
5. Радлов В.И. Опыт словаря тюркских наречий. т. I, часть I, с. 38-44.
6. Щербак А.М. Очерк по сравнительной морфологии тюркских языков (имя). Л., 1977.

**Zemfira ALIYEVA**

**THE EVOLUTION OF QUALITY CATEGORY IN TURKIC LANGUAGES**

**SUMMARY**

In Turkish languages, lexical-grammatical units are grouped on the basis of different principles. Lexical units in Turkic languages are classified according to their structure (simple, complex, compound); according to the features of form and meaning (homonyms, synonyms, polysemantic words, antonyms); according to the number of syllables (monosyllabic, bisyllabic, polysyllabic); according to the origin (national and loanwords).

In the system of Turkic languages, grammatical categories are also one of the divisions of words. Categories expressing the position of words in the language structure are one of the oldest problems of linguistics. Categories are general language phenomenon. The division of categories is based on semiological principles.

**Key words**: *grammatical category problems, system of categorical meaning, general categorical meaning, different systemed languages, lexical-grammatical category, general grammatical categorical semantics, grammatical signs, lexical-grammatical meaning, objectivity function, syntactic-contextual functions.*

**Земфира АЛИЕВА**

**ЭВОЛЮЦИЯ КАТЕГОРИИ КАЧЕСТВА В ТЮРКСКИХ ЯЗЫКАХ**

**РЕЗЮМЕ**

Лексико-грамматические единицы в тюркских языках группируются на основании разных принципов. В тюркских языках лексические единицы группируются по структуре (простые, производные, сложные); по форме и значению (омонимы, синонимы, антонимы, многозначные слова и т. д.); по числу слогов в структуре единицы (односложные, двусложные, многосложные); по происхождению (национальные и заимствованные лексические единицы).

В тюркских языках лексические единицы делятся по грамматическим категориям. Проблема грамматических категорий является одним из древних вопросов языкознания. Категории являются общеязыковыми явлениями. В основе деления категорий стоят семиологические принципы.

**Ключевые слова:** *проблемы грамматических категорий, система категориального значения, общее категориальное значение, разносистемные языки, лексико-грамматическая категория, общеграмматическая категориальная семантика, грамматические признаки, лексико-грамматическое значение, функция предметности, синтактико-контекстуальные функции.*